# BİZ UZUN İLLƏRİN DOSTU İDİK

## Professor İmamverdi Əbilovun əziz xatirəsinə



*Həmzə Vəlimәmmədov, Əməkdar jurnalist*

**Aqillər "həyat gözlənilməz hadisələrlə doludur" deyiblər. Belə hadisələrdən biri ötən ilin axırlarında mənim də başıma gəldi. Yazı masasının arxasında qəzetləri nəzərdən keçirəndə gözlərimə qaranlıq çökdü, yıxıldım. Özümə gələndə həkimlərin başım üstə dayandığını gördüm.**

- Beyninə qan sızıb. Yanına gedib-gəlmək, ucadan danışmaq olmaz. Xəstəyə sakitlik lazımdır, - deyə həkimlər övladlarıma tapşırdılar. Xəstəliyin ciddi olduğunu, müalicənin uzun çəkəcəyini gizlətmədilər.

Dörd ay çarpayıdan düşmədim. Nəvələrim növbə ilə yanımda dinməzcə oturub məni darıxmağa qoymurdular. Bir gün beşinci sinifdə oxuyan Səlminaz nəvəm (o, mərhum ömür-gün yoldaşımın adını daşıyır) məktəbdən qayıtmışdı. Sözlü adama oxşayırdı. Əlimi əlinə alıb:

- Baba, Neftçaladakı dostun İmamverdi müəllim dünyasını dəyişib

Xəyal məni ötən illərə, gənclik çağlarıma apardı. İmamverdi müəllimlə görüşlərim, keçirdiyim günlər, söhbətlərim yada düşdü. Həkimlərin qadağasına məhəl qoymayıb qələmi ələ alıb xatirələrin bir neçəsini kağıza köçürməyi özümə borc bildim.

1966-cı ilin söhbətidir. Rayon qəzetində çalışırdım. İmzam ara-sıra "Azərbaycan müəllimi" qəzetində görünür, yazılarım respublika radiosunda səslənirdi. Yayda İmamverdi müəllimdən məktub aldım. O, Hacıkənddə dincələrkən yazdığım radioocerkə qulaq asıb bəyənmişdi. Məsləhətlərini yazmağı da unutmamışdı. Leriki görmək arzusunda olduğunu bildirmişdi.

Aradan bir neçə il keçdi. Mən redaksiyanın kollektivinə rəhbərlik edirdim. İmamverdi müəllimin mətbuatda çap olunan yazılarını izləyir, fikirlərini məktubla ona çatdırırdım. Ziyalılıq haqqında silsilə yazıları maraqla qarşılanmışdı. "Kommunist" qəzeti rayonumuzda əldən-ələ gəzirdi.

Yay günlərinin birində rayon icraiyyə komitəsindən mənə zəng vurub dedilər ki, İmamverdi müəllim həyat yoldaşı ilə Lerikə gəlib, mehmanxanada sizi gözləyir. İşlərimi sahmana salıb yanına getdim. Mehmanxanada düşməsinə etirazımı bildirdim.

- Bura rahatdır. Pəncərədən Lerik şəhərinin hər tərəfi görünür. Ağacların altında oturub, çay içib dincəlir, dağ havasını uduruq, - dedi.

Təkidlə şeylərini yığışdırıb maşına qoydum, evə gəldik. Ayrıca otağı sərəncamına verdik. Sabahısı Rusiyada ali hərbi məktəbdə oxuyan oğlum da gəldi. O, təhsilini başa vurmuşdu. İmamverdi müəllim sevincimizə şərik çıxdı, ailəmizə gözaydınlığı verdi.

İki gün o rayonumuzu gəzib-dolaşdı. Təbiəti, insanları xoşuna gəldi. Ancaq dağ kəndlərinə qalxa bilmədi. Qan təzyiqi buna imkan vermirdi. Pəhriz saxlayırdı, ağır xörəklərdən çəkinirdi.

1989-cu ildə Mərkəzi Komitə Neftçalada ideoloji tədbir keçirirdi. Aran və cənub rayonlarının qəzet redaktorları da dəvət almışdılar. Tədbir başa çatandan sonra İmamverdi müəllimin qonağı oldum. Üçotaqlı fin evinin biri kitablar üçün ayrılmışdı. Kitabların əksəriyyəti ədiblər tərəfindən avtoqrafla hədiyyə verilmişdi. Bu kitab evində kimlər olmamışdı. Səməd Vurğun, Süleyman Rüstəm, Rəsul Rza, Süleyman Rəhimov, akademik Yusif Məmmədəliyev, Mehdi Hüseyn, Məmməd Rahim, Məmməd Arif, Həmid Araslı, Adil Babayev, Mir Mehdi Seyidzadə, Qabil, Məmməd Araz, Bəxtiyar Vahabzadə, İsmayıl Şıxlı, Əli Vəliyev, professor İbrahim Topçubaşov, diktor Aydın Qaradağlı Daha kimlər, kimlər.

"Yazıçı" nəşriyyatında İmamverdi Əbilovun "Xatirələr işığında" portret-hekayələr kitabı yenicə çapdan çıxmışdı. Kitabın bir nüsxəsinə "Duz-çörək kəsdiyim Həmzə müəllimə" yazıb mənə uzatdı. Yeni nəşrə ön söz yazan xalq şairi Bəxtiyar Vahabzadənin ilk cümlələri belə başlayırdı: "İnsan təbiət kimidir, dəyişir, bəhrə verir, əzəlinə qayıdır Beləliklə, nəsillər varisliyinin qırılmazlığı kimi dialektik proses davam edir. Təbiətə bənzər insanın təbiətindən bir ülvi fərqi var ki, fəsillər ötüb illər dolaşdıqca, insan bir daha ömrün baharına qayıda bilmir, ahıllaşır, qocalır, ən ümdəsi isə qocaldıqca müdrikləşir. Mən İmamverdi müəllimə bu cür alicənab qocalığına görə qibtə edirəm, qədirbilən dostlara, doğmalara da bu cür "qocalmaq" səadəti arzulayıram".

Tələbə dostum, gənc yazıçı Qərib Mehdinin "Qərib heyy " hekayələr kitabını İmamverdi müəllimə verib fikrini söyləməyi xahiş elədim. Bir-iki həftə keçməmiş müdrik sözünü mətbuatda dedi və Qəribi istedadlı qələm adamı kimi tanıtdırdı. Bu gün Qərib Mehdi hörmətli professorun ruhuna duaçıdır, Allahdan rəhmət diləyir.

***

Ötən əsrin axırlarında İmamverdi müəllimin xəstələndiyini qızı Səadət xanım mənə dedi. Vaxt tapıb yanına getdim. Bərk sınıxmışdı. Evdə əsa ilə gəzirdi. Oğlu Azər incəsənət universitetini bitirmişdi. Atası ilə Həcc ziyarətinə gedib qayıtmışdı. Yol qeydlərini sahmana salıb kitabçanı nəşr elətdirmişdi. Din xadimləri barədə material toplayırdı. Hüseyn Cavidin yaradıcılığı barədə mükəmməl məlumatı vardı. Birnəfəsə əsərlərindən parçalar söyləyirdi.



Söhbətimiz 3-4 saat çəkdi. "Yastığın yüngül olsun" deyib ayrıldıq. Ulu Tanrı mənim səsimi eşitdi. İmamverdi müəllim sağalıb ayağa qalxdı.

İmamverdi müəllimi Neftçala Rayon Ağsaqqallar Şurasının sədri seçmişdilər. Respublika Ağsaqqallar Şurasının keçirdiyi görüşlərdə rastlaşıb həmsöhbət olurduq. Ağsaqqalların IV qurultayı Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının iclas zalında keçirilirdi. Biz yanaşı əyləşmişdik. İmamverdi müəllimin sol tərəfindəki oturacaq boş idi. İclasın başlanmasından 5-10 dəqiqə keçmiş vaxtilə Nazirlər Sovetinin sədr müavini işləmiş, əli əsalı Kamran Hüseynov içəri girdi və bizim cərgədə əyləşdi. İmamverdi müəllimlə görüşdü. İclası aparan akademik Fuad Qasımzadə Kamran Hüseynovu görüb iş heyətinə dəvət elədi.

İmamverdi müəllim mənə Kamran Hüseynovla dostluğunun tarixçəsindən qısaca danışdı. Dedi ki, biz bir yerdə işləmişik. O, Neftçalada birinci katib olub, mən ikinci. Ədalətsizliyə, özbaşınalığa, rüşvətxorluğa qarşı birgə mübarizə aparmışıq. Çətinliklər, yersiz hücumlar bizi ruhdan salmayıb. Mübarizəmiz qələbə ilə başa çatıb. Kamran savadlı, etibarlı, qurucu ziyalı kimi respublikada tanınıb. Bu keyfiyyətlərinə görə Heydər Əliyev ona hökumətdə ən məsul bir sahəni tapşırmışdı. Etimadı doğrultdu, hörmət qazandı.

***

Respublika Ağsaqqallar Şurasının VI qurultayında İmamverdi müəllimlə görüşmək mənə nəsib olmadı. Gəlişi ilə gedişi bir oldu. Xəstəlik heydən salmışdı. 2013-cü ilin oktyabrında ağsaqqaldan məktub aldım:

"Gözlənilməz məktubdan heyrətlənməyin. Mən sizi ömrümün gənc illərinin həmdəmi kimi unutmamışam. Ötən illərin kədərli çağlarına, şux dəmlərinə də şükür. Allahın hədiyyəsi kimi qəbul etməliyik. Ancaq onu bilirəm ki, həyat sizi imtahana çəkəndə, kişi vüqarı ilə çəkmisiniz və yanınızda ola bilmədiyim üçün özümü günahkar bilməmişəm. Təxminən yeddi ildən yuxarıdır ki, kiçik Neftçalamı pəncərədən görürəm. Müxtəlif xəstəliklər: təngnəfəslik, mədə, ürək xəstəlikləri məni çarpayıya elə bağlayıb ki, evin içərisində bir otaqdan o birisinə keçmək mənə əsl əzab olur. Nə qədər tərəddüd etsəm, əzab çəkdiyimi bildirsəm də, məni evdən çıxarıb 5-6 addımlıqdakı maşına əyləşdirib ağsaqqalların qurultayına apara bildilər. Köhnə dostlar bir-bir gəlib görüşüb-öpüşdülər Və eyni rahatlıqla tez yola saldılar. Son on ildə Bakımı, beləcə, 15-20 dəqiqə maşının pəncərəsindən seyr edə bilmişəm.

Biz təmənnasız dostluq etmişik. Leriki sizin hesabınıza görüb feyz almışam. Azərim, maşallah, indi elmlər doktorudur, 24 irihəcmli kitabın müəllifidir. Min səhifəlik kitabı Türkiyədə çap olunub, əldən-ələ gəzir.

BMT məni yüksək orden ilə təltif edəndən sonra çoxalan təbriklərə tam cavab verə bilmədiyimə görə darıxıram. Ömrümüz "dünya nədi?" sualının cavabını tapdı: "Uzun mübarizə, qısa istirahət". Övladlarınıza, nəvələrinizə uzun ömür arzulayıram.

Hörmətlə,

İmamverdi Əbilov"

Ağsaqqal dostumun səhhəti barədə məlumatı həmkarım, telejurnalist İsmayıl Cəfərlidən alırdım. Cənub Televiziyası İmamverdi müəllim haqqında film də çəkmişdi. Maraqla baxır, ağayana danışığını dinləyirdik.

İmamverdi müəllimin səhhəti ilə maraqlanan həmyaşıdlarından biri də qonşum, əməkdar müəllim Məhərrəm Kazımlı idi. Onlar Moskvada, Ümumittifaq müəllimlərinin IV qurultayında tanış olmuşdular. Hər dəfə İmamverdi müəllimlə telefonla danışanda salamlarını çatdırmağı mənə tapşırırdı.

Dosta-tanışa hədsiz qayğı və diqqət göstərən İmamverdi müəllim kimi ikinci adam tanımıram. Ailəmizə itki üz verəndə - uşaqlarımın anası vaxtsız dünyasını dəyişəndə birinci zəng edib kədərimizə şərik çıxmışdı. 70 illik yubileyimdə ilk təbriki ağsaqqal ziyalıdan almışdım. Qızları gəlin köçürəndə, oğlanları evləndirəndə ilk xeyir-duasını vermişdi.

Bizdən uzaqda yaşasa da, xətri əzizdi, tez-tez xatırlanırdı.

***

İmamverdi Əbilov ömrünün yarısını pedaqoji fəaliyyətə həsr eləmişdi. Doğma şəhərindəki orta məktəbdə dilimizin və ədəbiyyatımızın zənginliyini şagirdlərə öyrətmişdi. O, Prezident təqaüdçüsü, filologiya elmləri doktoru, professor, respublikanın əməkdar müəllimiydi. Beynəlxalq elmi-ədəbi mükafatlar laureatı, Türk Dünyası Araşdırmaları Uluslararası Elmlər Akademiyasının akademiki, Beynəlxalq Elm Mərkəzinin fəxri akademiki idi. Həm də istedadlı yazıçı-publisist kimi ölkəmizdə tanınmışdı. Əsərləri çap olunub oxucu auditoriyasında geniş yayılmışdı.

**İmamverdi Əbilov Allahın ayırdığı 89 illik ömrü şərəflə yaşadı, şərəflə başa vurdu. Halal və mərd insan kimi o dünyaya köçdü. Yeri behişt olsun, məzarı nurla dolsun.**